Ədəbiyyat qəzeti

5 dekabr 2020-ci il 17




Hörmətli Kamal müəllim!

Sizi - Azərbaycan dilşünaslıq və ədəbiyyatşünaslıq elmlərinin, eləcə də Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini anadan olmağınızın 70 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Mən Sizin ilk məqalələrinizdən tutmuş bugünkü fundamental əsərlərinizə qədər elmi fəaliyyətinizi və yaradıcılığınızı müntəzəm izləyən oxucularınızdanam. Sizin istər məqalələriniz, istərsə də hekayə, pyes və romanlarınız dərin məzmunu və forma orijinallığı ilə həmişə fərqlənir, diqqəti cəlb edir və bu gün də etməkdədir.

Hörmətli, Kamal müəllim, bütün bu söylədiklərimdən əlavə, mən Sizinlə şəxsi dostluğumdan da çox-çox məmnunam. Siz etibarlı dost və maraqlı insansınız. Son illər yazdıqlarınız və şəxsi söhbətlərimiz mənə 70 yaşınızdan sonra da Sizin yeni-yeni daha kamil əsərlər yazacağınızı gözləməyə tam əsas verir. Sizə ən böyük arzum can sağlığı və bir də can sağlığıdır. Ruslar demişkən: "vsyo ostalnoye prilojitsya"!

Şəxsiyyətinizə böyük hörmət və etiram hissi ilə...